Futbol

# Tamerlanı parlaq gələcək gözləyir




"Qəbələ" Futbol Akademiyasının yetirməsi Tamerlan Rizvanov İngiltərədə, "Mançester Yunayted" Yay Futbol Məktəbində təlim məşqlərində iştirak edib. AFFA və "Bakcell" şirkətinin birgə layihəsi çərçivəsində gerçəkləşən hazırlıqların nəticəsi kimi "Dünya Bacarıqlar Finalı"na vəsiqə qazanıb və oktyabr ayının 17-dən 20-dək İngiltərənin Mançester şəhərində keçirilən "Dünya Bacarıqlar Finalı"nın təmsilçisi olub.

Bu şöhrət hər azyaşlı futbolçuya nəsib olan xöşbəxtlik deyil. Ancaq qəbələli yeniyetmə buna nail olub.

Tamerlan idmançılar ailəsinin nümayəndəsidir. Babası Vaqif Rizvanov ali idman təhsilli mütəxəssis olub və uzun illər Qəbələdə idmanın təşkilatlanmasına bilavasitə rəhbərlik edib. Tamerlanın atası Elşən Rizvanov da idmançı idi və Rusiyada düşdüyü ağır avtomobil qəzası onun idman karyerasını yarımçıq qoyub. Sülalənin üçüncüsü Tamerlan Rizvanov isə idmanın futbol növünü seçib. Qəbələ Futbol Akademiyasında arzusunu reallaşdırıb. Burada ardıcıl olaraq keçirdiyi dörd illik məşqləri ona çox şey verib.

Bu günlərdə isə baş verən bir hadisə, necə deyərlər, lap təsadüfi olub. Tamerlan evdə atası ilə birlikdə televizora baxırdı. "Mançester Yunayted" Yay Futbol Məktəbinin keçirilməsi haqqında xəbəri də buradan eşitdi və sənədlərini hazırlayıb Bakıya yollandı. Seçim turu onun üzünə güldü. İlk turdan sonra seçilmiş 32 nəfərin arasında Tamerlan da vardı.

Daha sonra İngiltərəli mütəxəssislərin iştirakı ilə keçirilən təlimlərdə İngiltərəyə gedəcək 6 nəfərdən birinin də Tamerlan Rizvanov olduğu elan edildi.

"Mançester Yunayted" Futbol Məktəbində keçirilən iki həftəlik gərgin təlim və məşqlərdən sonra Azərbaycandan gedən uşaqlardan yeganə olaraq Tamerlan finala vəsiqə qazanıb. Gənc futbolçu bütün bunlar üçün onun əziyyətini çəkmiş Qəbələ Futbol Akademiyasına və sevimli məşqçilərinə minnətdarlığını bildirir.

Tamerlana gələcək idman karyerasında uğurlar arzulayırıq. Bilmək olmaz, bəlkə də gələcəkdə gənc idmançı məşqlərini futbolun vətəni sayılan İngiltərədə davam etdirəcəkdir. Bütün bunları isə qarşıdakı sınaqlar göstərəcək.

**Miri RƏHİMOV.**

# Təltif edilmişdir

Respublikamızın hər yerində 9 noyabr "Bayraq günü" münasibətilə müxtəlif tədbirlər, müsabiqələr, idman yarışları keçirilmişdir. Bu tədbirlərin təşkili və keçirilməsində yaxından köməklik göstərdiyinə görə Qəbələ Rayon Uşaq-Gənclər İdman məktəbinin direktoru Əliyev Ədalət Məhəmmədiyyə oğlu Azərbaycan Respublikası Təhsil Nazirliyi respublika Bədən Tərbiyəsi və İdman Mərkəzi tərəfindın Fəxri Fərmanla təltif edilmişdir.

# Heç-heçələr limiti

Topaz Premyer Liqasında XIII turun oyunları keçirilmişdir. Beş oyunda komandalar xalları bölüşdürmüşdür:

"Rəvan"—"Sumqayıt"—1:1, AzAL—"Qarabağ"—1:1, "Simurq"—"İnter"—0:0, "Xəzər Lənkəran"—"Qəbələ"—0:0. Bərabərliklərlə nəticələnən bu turda yeganə oyunda qalib qeydə alınmışdır. "Neftçi" "Bakı"nı 2:1 hesablı məğlubiyyətə uğratmışdır.

Hər birinə 28 xal toplayan "Qarabağ"la "Neftçi" yarış cədvəlində 1—2-ci yerləri bölüşdürürlər. "Qəbələ" 23 xalla 3-cü pillədədir.

Noyabrın 21-də "Qəbələ" öz meydançasında AzAL-ı qəbul edəcəkdir.

**Miri RƏHİMOV.**

# Bum qəsəbəsinin komandası rayon çempionu oldu

Rayonumuzda Azərbaycanın müstəqilliyinə həsr olunmuş futbol çempionatı keçirilib. 14 komandanın iştirak etdiyi rayon çempionatında Bum qəsəbəsi C qrupunda yer alıb. Qrupda ilk oyunu Sileyli kəndinin komandası ilə keçirən bumlular 1-0 hesablı qələbə qazanıblar. Daha sonra Vəndam qəsəbəsinin komandası ilə oyundan 3-1 hesabla qalib ayrılıblar. Qəbələ Futbol Akademiyası komandası ilə oyunda tərəflərdən heç biri fərqlənməyib. Nic qəsəbəsinin komandasına isə Bum komandası 0-3 hesabla uduzub. Beləliklə, 7 xalla qrupda ikinci olan Bum komandası 1/4 finalda Şamıllını 2-1 hesabı ilə məğlub edib. Yarımfinalda əsas vaxtda Pirəlli kəndi ilə 3-3 hesablı bərabərliyə qalsa da, cərimə zərbələri seriyasında 6-5 hesablı qələbə qazanıb. Finalda Qəbələ şəhərinin "Şahdağ" komandasını 3-1 hesabı ilə məğlub edən bumlular çempion tituluna yiyələniblər.



**Şöhrət SÜLEYMANOV.**

# Aydan balamız!



*3 yaşın münasibəti ilə səni nənələrin Rəsmiyyə, Validə, anan Zülfiyyə, atan İlkin, dayın Rəhman, dayının yoldaşı Şəbnəm, əmin Teymur, əminin yoldaşı Aygün səni təbrik edirlər.*

*Böyük qız olasan, həyat yolun həmişə aydın və işıqlı olsun, ömrün şən və mənalı keçsin, səninlə fəxr edək.*

# Əziz Ləmanımız!

*Səni ad günün münasibəti ilə təbrik edirik. Arzu edirik ki, atalı-analı böyük qız olasan. Həyatın həmişə şən keçsin. Valideynlərinin, qohum-əqrəbalarının başını həmişə uca edən övlad olasan. Yüz yaşa çıxasan, Ləman!*

*Nənələrin Rəsmiyyə, Zahilə, babaların Əsgər, Eynullah, atan Rəhman, anan Şəbnəm, bibin Zülfiyyə, xalan Günay.*




# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2014 -cü il üçün abunə yazılışı başlanmışdır.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

***Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № 33080019444900218149. VÖEN 4400103601.***

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Bum qəsəbə (kənd) sakini Şıxverdiyeva Muxsə Məhəmmədəli qızına verilmiş JN-473F №-li (kod 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixdə 13 saylı qərarla Hacıalılı kənd sakini Soltanov İlqar Qabil oğlunun və ailə üzvlərinin adına verilmiş JN-070F №-li (kod 40604018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.